# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, əzizim İlham!

Yaxın vaxtlarda Sizin gözəl ölkənizdə oldum, Azərbaycan xalqına xas olan məşhur qonaqpərvərliyi bir daha yəqin etdim. Bu gün isə Dağlıq Qarabağda hadisələrin inkişafını dərin həyəcanla müşahidə edirəm. Yaxın vaxtlara qədər dondurulmuş münaqişə indi gözümüzün qabağında qaynar mərhələyə keçir.

Cənab Prezident, icazə verin bu çətin vaxtda Sizi və xalqınızı ürəkdən dəstəklədiyimi bildirim. Mən bu münaqişəni qızışdıran Ermənistanın hərəkətlərini pisləyirəm. Mən prezident olduğum dövrdə də, indi də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirəm və müdafiə edirəm.

Biz onu da bilirik ki, bu gün hadisələrin inkişafı təkcə Azərbaycan xalqının və Azərbaycan Ordusunun gücündən və sıx birləşməsindən yox, həm də başqa ölkələrin dəqiq mövqeyindən asılıdır. Təəssüf ki, Ukraynada və Azərbaycanda mövcud münaqişələrin oxşar cəhətləri və oxşar nəticələri çoxdur. Ukraynada və Azərbaycanda baş verən hadisələr barədə mənim mövqeyim dəyişməz qalır. Əsgərlər və dinc sakinlər həlak olur, ölkələrimiz öz əraziləri üzərində nəzarəti itirirlər. Bütün bunlar həmin münaqişələrin guya regional, daxili xarakter daşıdığı barədə dünyada yanlış təsəvvür yaradan, misli görünməmiş həyasız təbliğatla müşayiət olunur.

Cənab Prezident, inanıram ki, ölkələrimiz tezliklə yenidən öz sərhədlərinə nəzarət etmək və düşmənlərimiz tərəfindən müvəqqəti işğal edilmiş ərazilərdə dinc həyatı bərpa etmək imkanı qazanacaqlar.

Bu çətin dövrdə ölkələrimizə sülh, həmrəylik, müdriklik və güc arzu edirəm.

*Səmimiyyətlə, Sizin*

***Viktor YUŞENKO,***
***Ukrayna Prezidenti (2005-2010-cu illər)***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***